

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 177 (23.339)

*21 sentyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Prezident İlham Əliyev əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində, ovaxtkı rəhbərliyin səriştəsizliyi nəticəsində yaranmış iqtisadi-siyasi böhranın ölkəni ağır vəziyyətə saldığını və belə bir zamanda xalqın tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və cəsarəti sayəsində Azərbaycanın xilas olması naminə göstərdiyi xidmətlərdən danışıb. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasını tarixi hadisə adlandıran, o zaman qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün göstərilən səyləri xatırladan Prezident İlham Əliyev həmin dövrdə riskli bir dövlət kimi tanınan Azərbaycana xarici investorları cəlb etmək üçün ulu öndərin göstərdiyi sarsılmaz iradəni xüsusi qeyd edib.

“Əsrin müqaviləsi”nin imzalanmasının ölkəmizin sonrakı inkişafındakı və Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasındakı həlledici rolundan danışan Prezident İlham Əliyev neftdən əldə edilən gəlirlərin, ilk növbədə, xalqın rifahının yaxşılaşmasına yönəltmək kimi əsas məqsədə nail olunduğunu vurğulayıb.




## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə geniş məruzə ilə çıxış edən Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov bildirib ki, muxtar respublikamızda ümummilli lider Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən Ali Məclisin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi siyasi strategiya nəticəsində hərtərəfli inkişafa nail olunub. Məharətlə tətbiq edilən idarəetmə sistemi əsasında sosial-iqtisadi islahatların əhatə dairəsi genişləndirilib, əhalinin rifah halı yaxşılaşdırılıb, ərzaq və enerji təhlükəsizliyi tam təmin edilib.

Enerjidaşıyıcılarına tələbatın payız-qış mövsümündə xüsusilə artımı nəzərə alınaraq muxtar respublika əhalisinin, idarə, təşkilat və sənaye müəssisələrinin enerjidaşıyıcıları ilə təminatının dayanıqlı olması, qış aylarında yarana biləcək hər hansı problemin qarşısının alınması və nəticələrinin operativ aradan qaldırılmasının təmin edilməsi məqsədilə hər il Ali Məclisdə müşavirə keçirilir. Müşavirədə hər il ötən mövsümün nəticələri müzakirə olunur və əlaqədar təşkilatlar qarşısında konkret vəzifələr müəyyənləşdirilir.

Vurğulanıb ki, muxtar respublikada həyata keçirilən bu tədbirlər artıq neçə ildir, payız-qış mövsümünü problemsiz başa vurmağa imkan verir. Lakin buna baxmayaraq, hər il qış aylarında ortaya çıxa biləcək çətinliklərin aradan qaldırılması üçün hazırlıq işlərinin görülməsi və lazımi mal-material ehtiyatının yaradılması icrası zəruri olan vacib tapşırıq kimi qarşıda dayanır.

“2018-2019-cu illərin payız-qış mövsümündə qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsinin nəticəsidir ki, ötən dövr ərzində daxili işlər orqanları heç bir çətinliklə üzləşməyib, mövsümü uğurla başa vurub”, – deyən nazir diqqətə çatdırıb ki, qış aylarında sürüşmə nəticəsində heç bir yol-nəqliyyat hadisəsi qeydə alınmayıb, inzibati binalar fasiləsiz istiliklə təmin olunub, qazanxanalarda və mühafizə edilən obyektlərdə çalışan şəxslərlə aparılan hüquqi maarifləndirmə tədbirləri və ciddi nəzarət mexanizmi nəticəsində hər hansı xoşagəlməz bir hadisə baş verməyib. Bunlarla yanaşı, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyətinin isti qış geyimləri ilə təmin olunması, əsgər kazarmalarının istilik sistemində texniki tədbirlərin keyfiyyətlə həyata keçirilməsi, eləcə də kifayət qədər ərzaq ehtiyatının yaradılması payız-qış mövsümünün nöqsansız başa vurulması ilə nəticələnib.

Müşavirədən irəli gələn vəzifələrin icrası istiqamətində Daxili İşlər Nazirliyinin aid strukturları qarşısında müvafiq tapşırıqlar qoyulub.

Məruzə ətrafında çıxışlar dinlənilib.

Daxili İşlər naziri müşavirəyə yekun vuraraq qarşıya qoyulan vəzifələrin icrası istiqamətində aid strukturlara müvafiq tapşırıqlar verib.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar kollegiya iclası keçirilib.*



İclası nazir Tapdıq Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirib ki, dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına bu gün muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının saxlanması üçün ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbar yaradılıb. Ümumilikdə, soyuducu anbarların qurulması və məhsul tədarük edilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondundan sahibkarlara 4 milyon 362 min 840 manat, o cümlədən 2019-cu ilin ötən dövründə bu istiqamətdə sahibkarlara 65 min manat dövlət maliyyə dəstəyi göstərilib.

Diqqətə çatdırılıb ki, ötən dövr ərzində muxtar respublika ərazisində fəaliyyət göstərən meyvə-tərəvəz məhsullarının saxlanması anbarlarına 4081,5 tonadək kənd təsərrüfatı məhsulu, o cümlədən 3967,7 ton kartof, 55,6 ton soğan, 52,8 ton alma və 5,5 ton kələm məhsulu tədarük olunub, hazırda bu iş davam etdirilir.

Muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə 2019-cu ilin ötən dövrü ərzində Şərur rayonunda üç soyuducu anbarın yaradılması, iki soyuducu anbarın genişləndirilməsi başa çatdırılıb.

Nazir qeyd edib ki, əhalinin qış aylarında tərəvəz məhsulları ilə təmin olunması mühüm məsələlərdən biridir. Bəhs olunan dövr ərzində bir istixana kompleksi istifadəyə verilib, bununla da istixana komplekslərinin sayı 32-yə çatdırılıb. Bununla yanaşı, hazırda muxtar respublikada tərəvəz məhsulları yetişdirilməsi üçün 2 istixana kompleksində işlər davam etdirilir. Cari ilin ötən dövründə istixana komplekslərində tərəvəz məhsulları yetişdirilərək satışa çıxarılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirəni Təhsil naziri Rəhman Məmmədov açaraq məruzə edib.*

Vurğulanıb ki, bütün sahələr kimi, təhsil də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Aparılan təhsil quruculuğu təkcə rayon mərkəzlərini deyil, eyni zamanda ucqar dağ kəndlərini də əhatə edib ki, bu da tədrisin yüksək səviyyədə təşkilinə əlverişli şərait yaradıb.

Tikilən və ya əsaslı şəkildə yenidən qurulan təhsil müəssisələrinin müasir istilik sistemi ilə təchiz olunması payız-qış mövsümündə onların fasiləsiz fəaliyyətini təmin edib. 2019-cu ildə aparılan tikinti-quruculuq işləri başa çatdıqdan sonra şəhər və rayon təhsil şöbələri də daxil olmaqla, ümumilikdə, 247 təhsil müəssisəsi istilik sistemi ilə işləyəcəkdir. Ötən il təhsil müəssisələrinin 91 faizi istilik sisteminə malik idisə, bu il təhsil quruculuğu sahəsində aparılan işlərin nəticəsində bu göstərici 95 faiz təşkil edir. 2019-2020-ci tədris ilinin payız-qış mövsümündə istilik sistemi quraşdırılmayan təhsil müəssisələrində tədrisin fasiləsizliyini təmin etmək üçün onların yanacaq, mal və materiallara olan tələbatı müəyyənləşdirilib.

Bildirilib ki, yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərin də sayının artmasına səbəb olub. Belə ki, 2019-2020-ci tədris ilində muxtar respublikada fəaliyyət göstərən 212 ümumtəhsil məktəbindən 209-u, yaxud 99 faizi birnövbəli rejimdə işləyəcəkdir. Bu da tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə öz töhfəsini verəcəkdir.

Təhsil naziri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində sentyabrın 7-də 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə nazirliyə payız-qış mövsümündə təhsil müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunması, yaradılan müasir təhsil infrastrukturlarının qorunması və onlardan səmərəli istifadə olunması tapşırılıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə bu istiqamətdə fəaliyyətini gücləndirəcək, istilik sistemlərində çalışan texniki işçilərin peşə kurslarına cəlbini diqqətdə saxlayacaq, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi, məktəblərdə elektrik enerjisindən səmərəli istifadə olunması, israfçılığa yol verilməməsi məqsədilə maarifləndirici söhbətlər aparacaqdır.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.



***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclası nazir Nicat Babayev açıb.***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə nazirliyə payız-qış mövsümündə, mövsümi qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması ilə bağlı hazırlıq tədbirlərinə başlanılması, bütün ocaqçıların müvafiq kurslara cəlb olunması, habelə bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı müvafiq tədbirlərin görülməsi, hərbi hissələr üçün yun corabların toxunması işinin bu il də davam etdirilməsi barədə bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqların icrası ilə bağlı nazirlik tərəfindən qarşıda duran vəzifələr müəyyənləşdirilib, bununla əlaqədar tədbirlər planı təsdiq olunub və komissiya yaradılıb.

Qeyd olunub ki, əsgərlər üçün yun şərf və yun corab toxunması məqsədilə evlərdə məşğulluğu təmin edilən sağlamlıq imkanları məhdud şəxslərlə müqavilələr bağlanılıb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə birgə muxtar respublikada fəaliyyət göstərən müəssisələrin qazanxana işçiləri üçün maarifləndirmə tədbirlərinə başlanılıb.

Həmçinin qarşıdakı dövr ərzində müvafiq vakansiyalar üzrə kadrların təmin edilməsi, peşə təhsilinə malik olmayan, məşğulluq xidməti orqanlarında işaxtaran kimi qeydiyyatda olan şəxslərin vakant yerlərə göndərilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər peşələri üzrə kursların təşkili, habelə sosial-məişət xidməti göstərilən sağlamlıq imkanları məhdud şəxslərin və tənha ahılların qış mövsümünə uyğun olaraq geyim və digər vasitələrlə təmin olunması üçün zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı nazirliyə və tabeliyində olan qurumların inzibati binalarına baxış təşkil olunub. İstilik, su və kanalizasiya xətlərinin istismara yararlılığı yoxlanılıb, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində işlər aparılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

### 21 sentyabr Beynəlxalq Sülh Günüdür

# Ən ali bəşəri dəyər – sülh

*Birləşmiş Millətlər Təşkilatı 1981-ci ildə 21 sentyabrın “Beynəlxalq Sülh Günü” kimi qeyd olunması barədə Qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 21 sentyabr bütün dünyada “Beynəlxalq Sülh Günü” kimi qeyd olunur.*

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, 1 milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilmiş, təhsil və mədəniyyət ocaqlarımız, dini və tarixi abidələrimiz dağıdılmış, terrora məruz qalmışdır. Atəşkəs rejiminə baxmayaraq, bu proses bu gün də davam edir, uşaqlar, qadınlar, qocalar və bütövlükdə, əhali uzun müddətdir ki, münaqişədən əziyyət çəkir.

Ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, regionda sabitliyin yaranmasına nail olunmuşdur. Bu, dövlətimizin sülh arzusunun ifadəsi, həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi. Ölkəmizdə atəşkəs əldə olunduqdan sonra ulu öndər beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Ancaq işğalçı ölkə indiyədək beynəlxalq hüququn tələblərini pozaraq işğal siyasətini davam etdirir. ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuşdu. Ulu öndərin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının preambula hissəsində ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ülvi niyyəti kimi təsbit olunmuşdur.

Azərbaycan xalqı hər zaman sülhsevər olmuşdur. Bunu onunla izah etmək olar ki, tarixən vətənimizdə azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də mehribancasına yaşamış və hazırda da yaşayırlar. Ölkəmizin yüksək tolerantlığa sahib olması indi bir çox ölkələr üçün əsl nümunədir. Azərbaycanda yaşayan insanlar arasında milli və ya dini ayrı-seçkiliyə yol verilmir. Tolerantlıq, milli-etnik dözümlülük, sıx əməkdaşlıq, bərabər imkanlarla iştirak milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Yüzilliklər boyunca Azərbaycanda müxtəlif xalqlar vahid və mehriban bir ailə kimi yaşayaraq bir-birinin dininə, inancına hörmətlə yanaşmış və zəngin mədəni müxtəliflik qorunub saxlanmışdır.

Dahi şəxsiyyətin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. ***“Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır”***, – deyən dövlət başçısının apardığı çevik daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

21 sentyabr – Beynəlxalq Sülh Günü Naxçıvan Muxtar Respublikasında da müxtəlif tədbirlərlə geniş şəkildə qeyd olunur. Təcavüzkar Ermənistan tərəfindən sülhün və sabitliyin pozulması səbəbindən muxtar respublikamız 30 ilə yaxındır ki, blokada vəziyyətində yaşayır. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitində inkişaf edir. Aparılan düzgün siyasətin nəticəsidir ki, artıq Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası planetin ən təhlükəsiz guşələrindən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti nəticəsində Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmişdir. Ötən dövrdə muxtar respublikada iqtisadiyyatın və sənayenin bütün sahələrinin inkişaf etdirilməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması, yeni iş yerlərinin açılması, yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli məşğulluq təmin edilməklə əhalinin maddi rifah halının yaxşılaşdırılması, bir sözlə, muxtar respublikada bütün sahələrin dinamik inkişafının təmin edilməsi Naxçıvanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir. 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilmiş VI konfransında sülhün, təhlükəsizliyin carçısı rolunda çıxış edən Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz və inkişaf etməkdə olan müdafiə sənayemiz mövcuddur. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə bəyan etmiş, sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***“Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün, sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir”.***

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# Naxçıvanda kütləvi informasiya vasitələrinə dövlət dəstəyi ilə bağlı konkret mexanizmlər formalaşdırılıb

### *Bu, muxtar respublikada mətbuatın yeni mərhələdə inkişafına təkan verəcəkdir*

*Müasir dövrdə kütləvi informasiya vasitələri hər bir ölkənin, cəmiyyətin inkişafında mühüm rol oynayan əhəmiyyətli təsir vasitələrindəndir. Təsadüfi deyil ki, ölkələrin gələcək perspektivləri, beynəlxalq aləmdə tutduğu mövqeyi nəzərdən keçirilərkən həmin dövlətlərdə kütləvi informasiya vasitələrinin mövcud vəziyyətinə daha çox diqqət yetirilir, bir sıra məsələlər bu amillə dəyərləndirilir. Çünki müasir təcrübədən də göründüyü kimi, mətbuatı zəif olan dövlətlər istər daxili, istərsə də xarici siyasətin həyata keçirilməsində ciddi maneələrlə qarşılaşır ki, bu da, nəticədə, bütün sahələrdə geriləməyə yol açır. Bu gün qürurla deyə bilərik ki, gündən-günə çiçəklənən, güclənən ölkəmizdə, o cümlədən muxtar respublikamızda kütləvi informasiya vasitələrinin müasir dövrün tələblərinə uyğun fəaliyyəti üçün hər cür şərait yaradılıb.*




Tarixə nəzər yetirdikdə görürük ki, muxtar respublika mətbuatı yarandığı ilk gündən cəmiyyətə xidmət edib, insanları daha işıqlı gələcəyə, bu yolda inamla, fədakarlıqla çalışmağa səsləyib, böyük ziyalı nəslinin, siyasətçilərin yetişməsində mühüm rol oynayıb. ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada – orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıbdır”***, – deyən ümummilli liderimiz Heydər Əliyev bununla həm də mətbuat orqanının əhəmiyyətini, onun cəmiyyətin inkişafında, şəxsiyyətlərin formalaşmasında mühüm rolunu ön plana çıxarmış olur.

Ötən illər ərzində muxtar respublika mətbuatı çox böyük inkişaf yolu keçib. Bu məsələdə Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı və davamlı dövlət qayğısı mühüm rol oynayıb. Təkcə onu qeyd etmək kifayətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqət və qayğısı nəticəsində 2010-cu ildən etibarən “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi müasir maddi-texniki bazası ilə təchiz olunmuş yeni binada fəaliyyətə başlayıb. Bu gün muxtar respublikaya gələn xarici ölkələrdən olan həmkarlarımızın ən çox diqqətini çəkən məqamlardan biri də Naxçıvanda qəzetlərin yüksək poliqrafik keyfiyyətlə dərc olunmasıdır.

Ali Məclis Sədrinin kütləvi informasiya vasitələrinə göstərdiyi qayğı nəticəsində təkcə ötən il dövlət teleradiosuna, “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar verilib. Bu gün Naxçıvan Dövlət Teleradiosu, o cümlədən “Naxçıvanın səsi” radiosu və “Kanal-35” televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurulub, yeni nəsil rəqəmsal teleradio avadanlıqları quraşdırılıb. “Şərq qapısı” qəzetinin yeni internet saytı istifadəyə verilib, əməkdaşların əməkhaqqları bu ilin sentyabr ayından 20 faiz artırılıb. Bütün bunlar dövlətin mətbuata göstərdiyi böyük diqqət və qayğının təzahürüdür. Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması mətbuata böyük dövlət qayğısının daha bir nümunəsidir. Yeni dövlət qurumu muxtar respublika mediasının inkişafı ilə bağlı məsələlərlə birbaşa məşğul olacaqdır.

Bəs Fondun yaradılmasını zəruri edən amillər hansılardır? Əvvəlcə onu qeyd edək ki, cəmiyyətin sosial-siyasi və mədəni həyatında kütləvi informasiya vasitələrinin təsirinin güclənməsi, müasir informasiya və telekommunikasiya texnologiyalarının inkişafı bu sahədə infrastrukturun daim yeniləşməsini və jurnalistlərin peşəkarlığının artırılmasını zəruri edir. İnformasiya cəmiyyətinin yaradılması fonunda dünya informasiya məkanına inteqrasiya edən muxtar respublikada da kütləvi informasiya vasitələrinin inkişafına və fəaliyyətinin təkmilləşməsinə davamlı dövlət dəstəyi müasir dövrümüzün tələbinə çevrilib. Bu baxımdan yaradılan yeni qurum redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, jurnalistlərin peşəkarlığının artmasına şərait yaratmaq, onların sosial müdafiəsini daha da gücləndirmək kimi çox əhəmiyyətli işlər həyata keçirməklə bu sahənin davamlı inkişafını təmin edəcəkdir.

Digər tərəfdən bu gün muxtar respublikada “Şərq qapısı” ilə yanaşı, 8 şəhər və rayon qəzeti, 4 jurnal, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən çox əməkdaş çalışır. Bu heç də kiçik rəqəm deyil. Ona görə də həmin kütləvi informasiya vasitələri ilə əlaqəli işləyəcək, onların qarşılaşdıqları bütün məsələləri həll edəcək və daim dövlət dəstəyini həyata keçirəcək nüfuzlu bir quruma ehtiyac var idi. Bu baxımdan Fondun yaradılması ilə faktiki olaraq muxtar respublika mətbuatının inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyulmuş oldu. Çünki Fond kütləvi informasiya vasitələrinə dövlət dəstəyini daha dolğun, sistemli və ardıcıl şəkildə həyata keçirəcək, cəmiyyət və media arasında səmərəli əməkdaşlığın genişləndirilməsinə şərait yaradacaqdır.

Fikir, söz və məlumat azadlığının inkişaf etdirilməsi ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində fəal iştirak edəcək Fond kütləvi informasiya vasitələrinin inkişafına maliyyə təminatı yaratmaq üçün tədbirlər də görəcək, onların iqtisadi müstəqilliyinin gücləndirilməsinə, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə yönəldilmiş tədbirləri də həyata keçirəcəkdir.

Bundan başqa, yeni dövlət qurumu kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı təhlillər aparacaq, ictimai rəyin öyrənilməsini təşkil edəcək, medianın inkişafına metodik, təşkilati-texniki, konsultativ, müsabiqəli və müsabiqəsiz maliyyə və digər formalarda dövlət dəstəyinin göstərilməsi üçün müvafiq tədbirlər həyata keçirəcəkdir.

Yeri gəlmişkən qeyd edək ki, metodik dəstək kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, onların informasiya əldə etmək imkanlarının genişləndirilməsi, media nümayəndələrinin ixtisas və peşə hazırlığının artırılması üçün tövsiyələr, materiallar, məlumat kitabçaları və digər vəsaitlərin hazırlanması yolu ilə həyata keçirilir. Təşkilati-texniki dəstək müxtəlif tədbirlər zamanı kütləvi informasiya vasitələrinin səmərəli fəaliyyətinə zəruri şərait yaradılması, həmçinin fikir, söz və məlumat azadlığı, plüralizm və medianın inkişafı mövzusunda ictimai maraqdoğuran seminarların, konfransların, təlimlərin və digər tədbirlərin təşkilinə dəstək göstərilməsi vasitəsilə reallaşdırılır. Konsultativ dəstək qanunvericilik və digər normativ-hüquqi aktların şərhi və izahında, iş metodları və istiqamətləri, dövlət dəstəyinin göstərilməsi imkanları və sair məsələlər barədə məlumat verilməsində ifadə olunur. Maliyyə dəstəyi isə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastrukturunun modernləşdirilməsi, iqtisadi müstəqilliyinin gücləndirilməsi, dövlət və cəmiyyət üçün əhəmiyyətli problemlərin həllinə yönəlmiş proqramların, layihə və tədbirlərin maliyyələşdirilməsi məqsədilə dövlət tərəfindən yardımlar ayrılmasını nəzərdə tutur.

Bundan sonra kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi məqsədilə müsabiqələrin keçirilməsi qaydaları Fond tərəfindən müəyyənləşdiriləcəkdir. Qurum layihələrin həyata keçirilməsi üçün müvafiq vəsaitin xərclənməsi istiqamətlərini müəyyən edəcək, layihələrin reallaşdırılması məqsədilə müsabiqələri təşkil edəcəkdir.

Muxtar respublikada mediaya dövlət dəstəyinin verilməsi istiqamətində fəaliyyət göstərəcək belə bir mühüm dövlət qurumunun yaradılması Naxçıvanda kütləvi informasiya vasitələrinin inkişafına böyük həssaslıqla yanaşıldığını bir daha göstərir. Bu sahənin inkişafına nail olmaq üçün xüsusi mexanizmlərin formalaşdırılması qədim diyarda ictimai nəzarət funksiyasını uğurla yerinə yetirən medianın informasiya cəmiyyətinin formalaşmasında, mütərəqqi ənənələrə əsaslanmaqla xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişafını daha da sürətləndirəcəkdir.

*Sonda onu da qeyd edək ki, Fondun Müşahidə Şurasında digər peşəkar jurnalistlərlə yanaşı, “Şərq qapısı” qəzetinin baş redaktoru və baş redaktor müavininin də təmsil olunması göstərilən yüksək etimad kimi qəzetin kollektivi tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb. Bu etimad həm də böyük məsuliyyət deməkdir. Onu doğrultmaq isə hər birimizin müqəddəs amalı, vicdan borcudur.*

**Rauf KƏNGƏRLİ**

## Sabir Məmmədovun anadan olmasının 65 illik yubileyinə həsr edilmiş sərgi




***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Sabir Məmmədovun Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyinə həsr olunmuş 65 illik yubiley sərgisi keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək yubilyarın özünəməxsus yaradıcılıq yolundan danışıb.

Bildirilib ki, Naxçıvan rəssamlıq məktəbinin əvəzsiz sənətkarlarından olan Sabir Məmmədov həm güclü kolorist, həm heykəltəraş, həm də Naxçıvan Döymə Sənəti Məktəbinin ilk yaradıcılarındandır. O, daim dinamik və məhsuldar çalışan rəssamdır. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin ustad dərsləri daxil olmaqla, hər tədbirində böyük həvəslə, sənətkara xas olan təvazökarlıqla fəal iştirak edən rəssam yeni gələn gənc nəsil rəssamlarımıza sənətin sirlərini öyrədərək öz adını daha da ölümsüzləşdirir. Sabir Məmmədovun çoxsəpkili əsərlərinin içində doğma yurdu Naxçıvana aid olan silsilə əsərlər mövcuddur, bu mövzu rəssama daha yaxın və doğmadır. Sabir Məmmədov Rusiya, Ukrayna, İran, Türkiyə və sair ölkələrdəki sərgilərdə fəal iştirak edib. Onun xarici ölkələrdə, eləcə də Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda fərdi sərgiləri açılıb.

Ülviyyə Həmzəyeva rəssamı 65 illik yubileyi münasibətilə təbrik edib, ona Naxçıvan Rəssamlar Birliyinin fəxri diplomunu təqdim edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, muxtar respublikada rəssamlıq və təsviri sənət hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalının keçirilməsi haqqında" 2019-cu il 25 may tarixli Sərəncamı bu qayğının bariz ifadəsidir. Naxçıvanda rəssamlar üçün yaradılan şəraitin nəticəsidir ki, onlar yaradıcılıq imkanlarını daha da genişləndirir, fərdi sərgilər təşkil etməklə yanaşı, beynəlxalq festival və müsabiqələrdə də iştirak edirlər. Sabir Məmmədovun 65 illik yubiley tədbirinin Naxçıvanın muxtariyyət tarixinin 95-ci ildönümünə təsadüf etməsi yubilyar və sənətsevərlər üçün ikiqat əlamətdardır.

Qeyd edilib ki, 2006-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan rəssamın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 2013-cü ildə "İlin sənətkarı" adına layiq görülüb, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının inkişafında xidmətləri nəzərə alınaraq "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib.

Sabir Məmmədovun özünəməxsus yaradıcılıq potensialı olduğunu qeyd edən Surə Seyid bildirib ki, rəssamın əsərləri onun ecazkar sənət dünyasından xəbər verir. Bu əsərlər mövzu və tematika baxımından zəngin və rəngarəngdir. Rəssamın müxtəlif janrlarda çəkdiyi əsərlərində Naxçıvan Muxtar Respublikasının tarixi abidələri, təbiəti, mədəniyyəti, eləcə də görkəmli şəxsiyyətlərinin portretləri öz əksini tapıb. Surə Seyid rəssamı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb.

Tədbir iştirakçılarından Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparat rəhbəri Piri Nağıyev, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və digərləri yubilyarı təbrik ediblər.

Sabir Məmmədov çıxışında sərginin təşkil olunmasında göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Sonra sərgiyə baxış olub. Sərgidə rəssamın müxtəlif janrlarda işlədiyi 95 rəsm əsəri nümayiş olunur.

Qeyd edək ki, sərgi sentyabrın 25-dək davam edəcək.

Güntac ŞAHMƏMMƏDLİ

## Ali təhsil müəssisələrində çalışan əməkdaşların əməkhaqları artırılıb

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, dövlətimiz tərəfindən universitet əməkdaşlarının iş şəraitinin və rifahının yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində olub. Rektor bunun bariz nümunəsi olaraq 2019-cu il sentyabr ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri işçilərinin aylıq vəzifə maaşlarının minimum əməkhaqları nəzərə alınmaqla 20 faiz artırılması barədə Sərəncamını universitet əməkdaşlarının diqqətinə çatdırıb.



Kitabxanaçılıq və informasiya ixtisası üzrə II kurs tələbəsi Fidan Əzimli dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan istedadlı gənclərin təhsil xərclərinin qarşılanması üzrə ötən il keçirilən müsabiqədə qardaşının və öz adının olmasına görə çox sevindiklərini bildirib. O, ali təhsil ocağında tələbə-gənclərə göstərilən qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını ifadə edib.

Universitetin Dünya iqtisadiyyatı və menecment kafedrasının müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent Ceyhun Məmmədov Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2019-cu il sentyabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncamını diqqətə çatdırıb. Şuranın üzvləri siyahısında Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun da adının olmasını elmi mühitə göstərilən dövlət qayğısı kimi dəyərləndirib.

Ali təhsil ocağının Kadr və ümumi işlər şöbəsinin müdiri Günay Məmmədova kollektiv adından muxtar respublika rəhbərinə minnətdarlığını ifadə edib. Bundan sonrakı fəaliyyətlərində daha məsuliyyətlə, əzmlə çalışacaqlarına əmin olduğunu bildirib.

Səadət ƏLİYEVA

*Jurnalistin qeydləri*

## Naxçıvan: Dördüncü güc

***Həqiqətən də, Naxçıvanın son 25-30 ildə keçdiyi yolu təhlil edəndə açıq-aydın görünür ki, çox çətin və olduqca mürəkkəb bir dönəm bütün sahələrdə mütərəqqi yeniliklərin tətbiqi və qədim diyarın hərtərəfli inkişaf yoluna çıxması ilə başa çatıb. Ərzaq, enerji, müdafiə təhlükəsizliyi tam təmin olunmaqla gələcək inkişaf perspektivləri üçün də güclü əsaslar yaradılıb...***




Diqqətdən yayınmayan ən önəmli amillərdən biri də, heç şübhəsiz, muxtar respublikanın informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdir. Xatırlayırıq ki, ötən əsrin 90-cı illərində ciddi blokada buxovları ilə üzləşən Naxçıvan həm də informasiya blokadasına düşmüş, Ermənistanın işğalçılığı nəticəsində bütün rabitə-kommunikasiya xətləri iflic olmuşdu. Üstəlik, ozamankı AXC-Müsavat hakimiyyəti dönəmində Naxçıvan televiziyasına hücum edilmiş, mətbəə və qəzetçilik fəaliyyəti də böhranlı dönəmə daxil olmuşdu. Lakin ulu öndər Heydər Əliyev Naxçıvandan başlanan müstəqillik missiyasını sonrakı mərhələdə bütün Azərbaycanboyu davam etdirmiş, müstəqilliyin əsas elementlərindən biri olan azad mətbuat və teleradionun inkişafı istiqamətində vahid konsepsiyaya əsaslanan ardıcıl tədbirlər həyata keçirilmişdir.

Fikrimcə, sadalanan çətin dönəmlərdən uğurla çıxaraq günümüzdə öz yeri və mövqeyi ilə seçilən Naxçıvan mediası bu gün nəinki ölkə, hətta dünya təcrübəsində də nümunəvi bir modeldir. Bu modelin qurucusu və yaradıcısı isə medianın yaxın dostu və qayğıkeşi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur. Son 20 ildə Naxçıvan mediasında müxtəlif məsul vəzifələrdə çalışmış biri olaraq qətiyyətlə deyə bilərəm ki, Ali Məclisin Sədri təkcə medianın güclü maddi-texniki bazasını yaratmamış, həm də gələcək onilliklərə hesablanmış mütərəqqi ideoloji əsaslarını işləyib hazırlamışdır. Ona görə də Naxçıvanın iqtisadiyyatı, ordusu, idarəetmə sistemi, ictimai-mədəni mühiti kimi onun mediası da bu gün nümunə kimi göstərilir. Ötən müddətdə jurnalistlərlə dəfələrlə görüşən, onları mükafatlandıran, qayğı və problemlərini həll edən, kütləvi informasiya orqanlarının inkişafı ilə əlaqədar müşavirələr keçirən, öz tapşırıq və tövsiyələrini verən Ali Məclisin Sədri həm də bu sahədə artıq yeni bir dəstxət yaradan yüzlərlə qələm sahibinin də yetişib formalaşmasının əsas səbəbkarıdır.

Təbii ki, hər bir ideya real, konkret işdə öz təsdiqini tapdığı kimi, Ali Məclis Sədrinin də Naxçıvan mediasının inkişafı istiqamətində həyata keçirdiyi sistemli tədbirlər də konkret faktlarda açıq-aydın görünür. Gəlin baxaq:

– Naxçıvan iqtisadiyyatının hələ zəif olduğu 1995-2000-ci illərdə belə, Ali Məclisin Sədri "Şərq qapısı", rayon və şəhər qəzetlərinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması barədə xüsusi sərəncam vermiş, Naxçıvan teleradiosuna o dövr üçün ən müasir olan avadanlıqlar alınmış, televiziya müstəqil kanalda yayımlanmağa başlamışdır;

– 2001-ci ildə "Naxçıvanın səsi" radiosu, 2004-cü ildə isə "Kanal-35" televiziyası yaradılmışdır;

– Sonrakı dönəmdə KİV fəaliyyətinin mühüm tənzimləmə və hüquqi əsasları yaradılmış, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası təşkil olunmuşdur;

– 2001-ci ildə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası açılmış, tədrisyönümlü televiziya və radio fəaliyyətə başlamışdır;

– "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin tikilməsi və burada Almaniya istehsalı olan ən son çap texnologiyasının tətbiqi qəzet və digər nəşrlərin ən yüksək standartda buraxılmasını təmin etmiş, eləcə də "Şərq qapısı" qəzetinin əməkdaşları üçün ideal iş şəraiti yaradılmışdır;

– Naxçıvan teleradiosunun binası əsaslı yenidən qurulmuş, ən yüksəkkeyfiyyətli yayım və çəkiliş avadanlıqları alınmışdır.

– Naxçıvan teleradiosu ölkəmizdə ilk dəfə HD yayıma keçmiş, 2011-ci ildən etibarən isə muxtar respublikada rəqəmsal yayımın tətbiqinə başlanılmışdır;

– Naxçıvan televiziyasının efir vaxtı mərhələ-mərhələ artırılaraq 3 saatdan 19 saata çatdırılmışdır;

– 2016-cı ildən Naxçıvan televiziyasının internet üzərindən yayımının təşkili, 2018-ci ildə isə 3 dildə xəbər yayan "Nuhçıxan" İnformasiya Agentliyinin yaradılması muxtar respublikanın informasiya blokadasını tamamilə yarmışdır. Bu həm də düşmən qüvvələrlə informasiya savaşında öndə olmağa və onları bu mübarizədə udmağa hesablanmış çox strateji bir addım kimi tarixə yazılmışdır;

– Bütün dövlət orqanlarında mətbuat xidmətlərinin, muxtar respublikanın rayonlarında isə Naxçıvan televiziyasının müxbir postlarının yaradılması informasiya mübadiləsində və onun operativ yayılmasında müstəsna əhəmiyyət kəsb etmişdir;

– 2017-ci ildən Naxçıvan televiziyasında, eləcə də Naxçıvan Dövlət Radiosunda xəbərlərin ingilis və rus dillərində təqdimatına başlanmış, bununla da Naxçıvan həqiqətlərinin ölkəmizin hüdudlarından kənara çatdırılması üçün daha bir ciddi əsas yaradılmışdır;

– Naxçıvan televiziyasında son 5 ildə qədim diyarın tarix və mədəniyyətini, görkəmli şəxsiyyətlərini, müasir həyatını əks etdirən 103 sənədli və televiziya filmi çəkilmiş, verilişlərin məzmun və keyfiyyətinin yüksəldilməsi hesabına izləyici sayı xeyli artırılmışdır;

– "Şərq qapısı" qəzetinin yeni internet saytı yaradılmış, bununla da qəzet öz oxucuları ilə onlayn görüşmək imkanı əldə etmişdir...

– Onlayn medianın inkişafı və muxtar respublikanın 100 faiz internetlə təminatı sosial şəbəkələrdə aktivliyi də xeyli artırmışdır. Təkcə Naxçıvan televiziyasının sosial şəbəkə hesablarının ölkəmizdə və dünyada 200 mindən artıq izləyicisi vardır. Bunun nəticəsidir ki, indi dünyanın "Əl-Cəzirə", "BBC", "Yevronyus", "TRT-Vorld" kimi mühüm media korporasiyaları Naxçıvana maraq göstərir, diyarımızla bağlı hazırladıqları film və informasiyaları öz izləyicilərinə çatdırır, Naxçıvanın yüksək turizm potensialını təbliğ edirlər;

– Naxçıvan televiziyası "AZƏRTAC", "Səs", "AZTV", "Lider" kimi ölkəmizin qabaqcıl media resursları ilə qarşılıqlı əməkdaşlıq edir, Naxçıvanda yaşayan jurnalistlər müntəzəm olaraq Bakıda nəşr edilən qəzetlərdə maraqlı məqalə və publisistik yazılarla gündəmə gəlirlər...

Təbii ki, bir qismini sadaladığım bu mühüm faktlar bir daha təsdiq edir ki, ötən müddətdə Naxçıvan mediasının inkişafı tam planlı şəkildə və uğurla həyata keçirilib. Etiraf etmək lazımdır ki, əvvəlki dövrlərdə zəif olan təbliğat maşınımız həyata keçirilən bu qətiyyətli tədbirlər nəticəsində öz gücünü xeyli artıraraq vacib bir ideoloji vasitəyə çevrilə bilib. İndi biz operativ və peşəkarlıqda rəqiblərimizi, eləcə də xaricdəki düşmən qüvvələrini xeyli qabaqlayırıq. Yalanın və Naxçıvan əleyhinə illərdir, aparılan çirkin kampaniyaların qarşısını qətiyyətlə alırıq. Necə deyərlər, artıq döyüşə uzaq hədəflərə hesablanmış "ağır artilleriya" ilə girə bilirik. Dünyada dördüncü hakimiyyət, dördüncü güc hesab olunan medianın ön cərgəsində bu gün klassik ənənələri yaşadan və öz dəstxəti ilə seçilən Naxçıvan mediası da vardır!

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, Ali Məclisin Sədri özünün iş prinsipi və idarəetmə fəlsəfəsində hər zaman davamlılığı, eləcə də gələcəkdə əldə olunacaq nəticələri əsas götürür. Bu mənada, cənab Sədrin 2019-cu il 19 sentyabr tarixdə imzaladığı Fərmanla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da Naxçıvan mediasının inkişaf perspektivləri baxımından mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə, kütləvi informasiya vasitələrinin davamlı inkişafı ilə şərtlənir. Bu fond həm də Naxçıvan mediasında daha məsul olan yeni bir mərhələnin başlamasına işarədir. Fondun Müşahidə Şurasına öz sahəsində kifayət qədər təcrübəyə malik olan həmkarlarımızın təsdiq edilməsi də deyilənlərin sübutudur.

Yuxarıda vurğuladığım kimi, bu vacib addım və verilən qərar həm də bir davamlılıqdır.

***Uğurlarımız davamlı olsun!***

Sahil TAHİRLİ
jurnalist

# 137-ci teatr mövsümünün açılışı olub

***Sentyabrın 20-də yazıçı-dramaturq Xaqani Əliyevin “Ehsan xan Kəngərli” tarixi dramı əsasında hazırlanmış eyniadlı tamaşa ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı 137-ci teatr mövsümünü açıb.***





Yeni mövsümün açılışı münasibətilə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, yarandığı gündən indiyə qədər dünya dramaturgiyasından 100-ə yaxın əsəri səhnəyə qoymuş Naxçıvan teatrı millilik və bəşəriliyi vəhdətdə saxlayaraq həmişə zəngin və rəngarəng repertuar yaratmağa diqqət yetirib, zamanın sərt sınaqlarından çıxaraq xalqımızın mənəvi təkamülündə, estetik şüurunun formalaşmasında əhəmiyyətli rol oynayıb.

Vurğulanıb ki, Naxçıvan teatrı milli dramaturgiyamızın klassik nümunələrinə geniş meydan verməklə soykökümüzə, qan yaddaşımıza, milli şüurun formalaşmasına, Azərbaycançılıq ideyasının yayılmasına öz töhfəsini verib.

Naxçıvan Muxtar Respublikasında mədəniyyətin, eləcə də teatr sənətinin inkişafına göstərilən qayğıdan bəhs edən nazir bildirib ki, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, teatr sənətinə bağlı insanların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Diqqətə çatdırılıb ki, ötən teatr mövsümündə tamaşaçılara “Xəyyam”, “Ehsan xan Kəngərli”, “Ölülər və dəlilər” kimi maraqlı və ideya-bədii müxtəlifliyi ilə seçilən tamaşalar təqdim edilib. Yeni teatr mövsümündə də Naxçıvan teatrı öz ənənələrini davam etdirərək maraqlı, ideyaca aktual mövzulardan bəhs edən səhnə əsərləri ilə tamaşaçıların görüşünə gəlməyi nəzərdə tutur.

Muxtar respublikanın Mədəniyyət naziri Natəvan Qədimova çıxışının sonunda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivini və teatrsevərləri 137-ci teatr mövsümünün açılışı münasibətilə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra “Ehsan xan Kəngərli” tamaşası göstərilib. Tamaşada XIX əsrin əvvəllərində Naxçıvan xanlığında baş verən ictimai-siyasi hadisələrdən bəhs olunur. Rusiya-İran müharibəsi və Naxçıvanın ruslar tərəfindən işğal olunması əsərin əsas süjet xəttini təşkil edir. Tamaşada professional aktyor heyəti təmsil olunur.

Tamaşanın elmi məsləhətçisi akademik İsmayıl Hacıyev, quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada payız suvarma mövsümünə hazırlıq görülür



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən avqust ayında payız suvarma mövsümünə hazırlıqla əlaqədar tədbirlər görülmüş, 7 kilometr magistral kanal, 18 kilometr ara arx, 4 kilometr kollektor lildən təmizlənmişdir. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 650 metr məsafədə selə qarşı istiqamətləndirici bənd salınmışdır. Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 26 milyon kubmetr suvarma suyu verilmiş, bunun müqabilində 22 min 741 hektar torpaq sahəsi suvarılmışdır. Şahbuz rayonunun Türkeş kəndi ərazisini əhatə edən 300 hektar sahədə qapalı suvarma şəbəkəsində, Şərur və Ordubad rayonlarındakı sutəmizləyici qurğuda tikinti işləri davam etdirilmişdir.

Bu dövrdə 2 kilometr yeni içməli su xətti, 2,5 kilometr yeni suvarma xətti çəkilmiş, 5 kəhrizdə təmir-bərpa işləri, suvarma və içməli su mənbəyi kimi istifadə olunan 91 subartezian quyusunda təmir işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# “Dövlət qulluğunda etik davranış qaydaları” adlı təlim keçirilib



19 sentyabr 2019-cu il tarixdə start verilən təlimə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin dövlət qulluqçusu olan 24 əməkdaşı cəlb edilib. 2 gün davam edən təlimin əsas məqsədi dövlət qulluğunda etikanın əhəmiyyəti, dövlət qulluqçularının riayət etməli olduğu əsas etik davranış qaydaları barədə gənc dövlət qulluqçularını məlumatlandırmaqdır.

Təlimin ilk günü “Dövlət qulluğunda etika” adlı mövzuya uyğun olaraq etik qaydalarla bağlı qanunvericilik, dövlət qulluqçularının qarşılaşa biləcəkləri etik dilemmalar, etik davranış qaydalarına dair müzakirələr məqsədilə qruplarla iş aparılıb və təlimin keyfiyyətinin qiymətləndirilməsi üçün anonim sorğu keçirilib.

Növbəti gün “Peşə etikası və etiket qaydaları” adlı mövzuya dair mərkəzin direktoru Sevinc Cabbarovanın slaydların müşayiətilə çıxışı dinlənilib. Etiketin ümumi qaydaları, peşəkar davranış etiketinin ümumi müddəaları, kommunikasiya bacarıqlarının təkmilləşdirilməsi ilə əlaqədar tapşırıqlar verilib, mövzuların müzakirəsi aparılıb.

Sonra ekspert qismində Maliyyə Nazirliyi əməkdaşlarının mövzu ilə bağlı çıxışları dinlənilib. Bildirilib ki, dövlət qulluqçusu öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkar səviyyədə yerinə yetirməyə borcludur. Dövlət qulluqçusu etik davranışı və öz peşəkar fəaliyyəti ilə vətəndaşların dövlət orqanlarına inamını artırmalı və möhkəmləndirməlidir.

Sonda təlimdə iştirak edən dövlət qulluqçularına sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Texniki müayinələr aparılır



Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Dövlət Nəqliyyat Xidmətinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra işlər görülür, payız-qış mövsümünü uğurla başa vurmaq üçün hazırlıq tədbirləri həyata keçirilir. Xidmət tərəfindən nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətinin təmin edilməsi, xəttə çıxacaq nəqliyyat vasitələrinin sazlığının yoxlanılması, eləcə də payız-qış mövsümünün uğurla başa vurulması üçün sentyabr ayının 20-dən etibarən muxtar respublika üzrə sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinədən keçirilməsinə başlanılıb.

İlk olaraq muxtar respublikanın ucqar dağ və sərhəd kəndlərinə işləyən avtobusların texniki müayinəsi həyata keçirilib, aşkar olunan çatışmazlıqların aradan qaldırılması üçün sürücülərə lazımi köməklik göstərilib. Oktyabr ayının sonunadək muxtar respublika daxilində 131 marşrut xətti üzrə fəaliyyət göstərən 313 avtobusun hamısı texniki müayinədən keçiriləcək. Texniki müayinə zamanı avtonəqliyyat vasitələrinin tormoz sistemi, sükan idarə mexanizmi, xarici işıq cihazları, ön şüşənin silgəcləri və şüşəyuyanları, təkərlər və şinlər, mühərrik, yanğınsöndürmə balonu, tibb çantası, qəza üçbucağı və konstruksiyanın digər ünsürləri yoxlanılır.

Rayondaxili marşrutların texniki müayinəsi isə müvafiq avtovağzallarda həyata keçiriləcək. Görülən tədbirlər çərçivəsində avtovağzallarda istilik sistemlərinin işə salınaraq işlək vəziyyətə gətirilməsi və çatışmazlıqların aradan qaldırılması da nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, sərnişindaşıma xidməti göstərən taksi minik avtomobillərinin texniki müayinəsinə isə oktyabr ayında başlanılacaq.

**✍ Nail ƏSGƏROV**

# Hakimliklə bağlı seminara yekun vurulub

***Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası (NFF) və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə futbol hakimləri üçün seminar keçirilib.***



Sentyabrın 18-də başlayan seminara yekun vurulub. AFFA-nın Hakimlər Komitəsinin üzvü FİFA referisi Anar Salmanov və milli dərəcəli hakim Ceyhun Haşımovun iştirakı ilə reallaşan seminara NFF-nin hakimlik kurslarında yer alan 9 nəfər qatılıb. Seminarın sonuncu günündə Gənclər və İdman Nazirliyi və Futbol Federasiyası adından qonaqlara hədiyyələr təqdim olunub, onlara uğurlar arzulanıb.

Anar Salmanov və Ceyhun Haşımov bu sahənin inkişafı üçün göstərilən dəstəyə görə minnətdarlıq ediblər. Naxçıvanda yeni hakimlər nəslinin formalaşdırılmasının sevindirici olduğunu deyən qonaqlar onların bilik və bacarıqlarının artırılması üçün bundan sonrakı müddət ərzində də qarşılıqlı əməkdaşlığın davam etdiriləcəyini bildiriblər.

Qeyd edək ki, ikigünlük seminar futbol qaydaları ilə bağlı 17 əsas qanun və tətbiq olunan son dəyişikliklərlə əlaqədar məlumatların hakimlərə çatdırılması, matçlarda rastlanan maraqlı epizodların videotəhlili, hakimlər briqadasının iş prinsipləri və normaları, idarəçiliyin qiymətləndirmə və dəyərləndirilməsi, digər mövzuları əhatə edir.

Seminar iştirakçılarına Beynəlxalq Futbol Assosiasiyası Şurasının tərtib etdiyi və AFFA tərəfindən tərcümə olunan oyun qaydaları ilə bağlı kitablar paylanılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**I.Kafedra müdiri vəzifələri üzrə**

***1. Pedaqogika və psixologiya kafedrası***

***2. Dillər və ədəbiyyat kafedrası***

Qeyd: Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

**II.Kafedralardakı digər vəzifələr üzrə**

***1.Pedaqogika və psixologiya kafedrası:***

- Baş müəllim – 1 yer (1 ştat)
- Baş müəllim – 1 yer (0,5 ştat)
- Müəllim – 2 yer ( hər biri 0,5 ştat)

***2. Humanitar və ictimai fənlər kafedrası:***

- Dosent – 1 yer (0,5 ştat)

***3. Riyaziyyat və onun tədrisi metodikası:***

- Baş müəllim – 1 yer (0,5 ştat)

***4. Ali riyaziyyat və informatika:***

- Dosent – 1 yer (0,5 ştat)
- Müəllim – 2 yer (hər biri 0,5 ştat)

***5. Ümumi fənlər:***

- Müəllim – 1 yer (1 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə uyğun şəkildə rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Rektorluq***
***Əlaqə: 545-32-02***

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 636